# Səhnədə "Ümid nəğməsi"



**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının kiçik səhnəsində gənc dramaturq Pərviz Seyidlinin pyesi əsasında hazırlanan "Ümid nəğməsi" adlı tamaşanın premyerası keçirilib.**

Qeyd edək ki, tamaşa Özbəkistanın paytaxtı Daşkənddə keçiriləcək "Uşaqlar XXI əsrdə" I Beynəlxalq Uşaq Teatrları Festivalı üçün hazırlanıb.

Sənhə əsərinin quruluşçu rejissoru Əməkdar artist Nicat Mirkazımov, quruluşçu rəssamı Nisə Həsənova, musiqi tərtibatçısı Zaur Rəşidovdur. Psixoloji dram janrında hazırlanan tamaşada aktyorlar Sevinc Əziz, Sənan Kazımov, Nurlan Süleymanlı, Hüseyn Bayramov və Səbinə Məmmədzadə iştirak ediblər.

Autizm xəstəsi olan oğlanın ailəsi ilə yaranan mürəkkəb münasibətlərinin fonunda bəşəri duyğularla həmahəng səslənən əsərdə insan həssaslığının vacibliyindən, dar məqamda adi təsəlliedici sözün belə ümid nəğməsinə çevrilməsindən bəhs edilir. Bu nəğmənin sədası isə tamaşada göstərildiyi kimi, zəlzələ zamanı dağıntılar altında qalan insanların xilasına çevrilə bilər.

Premyerası uğurla keçən əsərin əsas məramı humanizm və təəssübkeşlik hisslərinin insanlığın əsas xilası olduğunu vurğulamaqdır.

***XQ***

Xalq qəzeti .- 2024.- 26 aprel, № 84.- S.10.